**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN ƏDƏBİYYATINDA YARADICI ŞƏXSİYYƏT OBRAZI

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilis ədəbiyyatı)
5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Sevda Söhrab qızı Hüseynova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Mühəndislik Universitinin "İngilis dili" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: filologiya elmləri doktoru, professor
**Məmməd İrac oğlu Əliyev**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Leyli Əliheydər qızı Əliyeva**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Sevinc Saday qızı Zeynalova**

filologiya elmləri doktoru, dosent
**Sara Yusif qızı Osmanlı**

filologiya üzrə fəlsəfə doktoru
**Leyla Çingiz qızı Şərifova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının bazasında yaradılmış BFD 1.05 – Birdəfəlik dissertasiya şurası.

Birdəfəlik dissertasiya
şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
_________________________ **İsa Əkbər oğlu Həbibbəyli**

Birdəfəlik dissertasiya
şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru
_________________________ **Aysel Həsən qızı Qurbanova**

Elmi seminarın
sədri: filologiya elmləri doktoru, professor
_________________________ **Aynur Zakir qızı Sabitova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Yaradıcı şəxsiyyət problemi bədii və elmi düşüncədə bütün dövrlər üçün aktual olmuşdur. Hələ orta əsrlərdən yaradıcı şəxsiyyətə münasibət həmişə Azərbaycanın yazıçı və şairlərini də düşündürmüşdür. Hazırki tədqiqat işində əsas məqsəd cəmiyyətdə, sosial sferada yaradıcı şəxsiyyətin özü ilə gətirdiyi yeniliklər, yaratdığı özəlliklər və bunlardan lazımı şəkildə bəhrələnmək, bu yeniliklərin tezlik amplitudasını cəmiyyətin xeyrinə yönəltməkdir.

Şərq və Qərb aləmində yaradıcı şəxsiyyətə münasibət, bu münasibətin təkamül prosesi fərqli olmuşdur. Tədqiqatın aktuallığını əks etdirən məqamlardan biri bu təkamül prosesində yaradıcı şəxsiyyətin formalaşmasına təsir edən amillərə aydınlıq gətirməkdir. Fərqliliyi yaradan səbəblər mövzu ilə bağlı hər iki ədəbiyyatda əks olunan ictimai–siyasi, sosial–mədəni proseslərin müxtəlifliyi və cəmiyyətdə qloballaşma prosesinə olan reaksiyanın özünəməxsusluğudur.

Müxtəlif dövrlərdə və ölkələrdə yaradıcı şəxsiyyət cəmiyyətin həyatında mühüm əhəmiyyət kəsb edərək, onun mədəni inkişafında müxtəlif yönlü dəyişikliklər yaratmışdır. Bu baxımdan yaradıcı şəxsiyyət problemi Azərbaycan və ingilis ədəbiyyatında özünəməxsus şəkillərdə əks olunub.

Müasir ingilis və Azərbaycan ədəbiyyatında yaradıcı şəxsiyyət obrazı mövzusunun aktuallığı müqayisəli təhlil əsasında problemin tipoloji müstəvidə tədqiqinin son olaraq dünya ədəbi-tarixi prosesinin qanunauyğunluqlarının işlənməsi ilə bağlıdır. Mövzunun aktuallığı həm də yaradıcı şəxsiyyətin sosial mühitə inteqrasiyası aspektlərinin həm üfüqi, həm də şaquli kontekstdə tədqiqi zərurəti ilə bağlıdır. Bu problemin milli–mənəvi dəyərlər kontekstində işlənməsi Azərbaycan və ingilis elmi–nəzəri fikri üçün əhəmiyyət kəsb edir.

Bu mövzu modeli müxtəlif dövr və müəlliflər müstəvisində davamlı şəkildə araşdırma tələb edir.

Araşdırma zamanı aktuallıq kəsb edən əsas məqamlardan biri ondan ibarətdir ki, ədəbiyyatda yaradıcı şəxsiyyət obrazı müxtəlif

formalarda, məsələn, tarixi–bioqrafik janrda, memuarlar və avtobioqrafiyalarda sənət adamlarının portretləri şəklində və s. öz əksini tapmışdır. Buradan aydın olur ki, ədəbiyyatda yaradıcı şəxsiyyət obrazını çoxistiqamətli araşdırmaq üçün kifayət qədər material mövcuddur.

Dissertasiya işində ingilis və Azərbaycan ədəbiyyatında yaradıcı şəxsiyyət obrazının ideya–bədii aktuallığını verə bilmək üçün ingilis yazıçıları Uilyam Somerset Moemin "Ay və qara qəpik"[1], "Teatr"[2] romanlarında müvafiq olaraq rəssam və aktrisa obrazları, Virciniya Vulfun "Yazıçının gündəliyi"[3], "Onun öz otağı"[4] esselərində yazıçının avtoportreti, Əşrəf Səid İbrahimin "Sultan Məhəmməd"[5] tarixi romanında rəssam–miniatürçü obrazı, İlqar Fəhminin "Aktrisa"[6] əsərində aktrisa obrazı, Gülrux Əlibəylinin "Düşünən dünyamız"[7] və "Çırpınan dünyamız"[8] esselər kitablarında müəllif özünütəhlili, ədəbi portretlər geniş müqayisəli təhlil müstəvisinə gətirilir.

Mövzunun aktuallığını şərtləndirən ən mühüm amillərdən biri də adı keçən əsərlərin fəlsəfi–estetik mahiyyəti, ümumbəşəri səciyyəsinin dəyərləndirilməsindədir. Yaradıcı şəxsiyyətin simasında Azərbaycan və ingilis həyatı, milli məişəti, düşüncə tərzi, ümumiyyətlə, mentallığı təsvir olunur. Lakin bu təsvirlər məhdud çərçivədə qalmayıb qlobal səciyyə daşıyır. Bu qəhrəmanların psixoloji yaşantıları milliyyətindən asılı olmayaraq hər bir insan üçün doğmadır.

Digər önəmli amil mövzunun tədqiq tarixinin araşdırılması,

---

[1] Moem, U.S. Ay və Qara Qəpik / U.S.Moem. – Bakı: Qanun Nəşriyyatı, – 2012. – 256 s.

[2] Moem, U.S. Teatr, Seçilmiş əsərləri / U.S.Moem. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2016. – 563 s.

[3] Woolf, L. A Writer`s Diary: Being Extracts from the Diary of Virginia Woolf / L. Woolf.– San Diego: Harcourt Inc., – 1953. – 367 pp.

[4] Woolf, V. A Room of One's Own / V. Woolf. – London: Grafton, Harper Collins Publishers, – 1977. – 125 pp.

[5] İbrahim, S.Ə. Sultan Məhəmməd / S.Ə.İbrahim. – Bakı: Yazıçı, – 1992. – 176 s.

[6] Fəhmi, İ. Aktrisa / İ.Fəhmi. – Bakı: Qanun Nəşriyyatı, – 2011. – 156s .

[7] Əlibəyli, G. Düşünən dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 1998. – 196 s.

[8] Əlibəyli, G. Çırpınan dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 2000. – 176 s.

işlənmə dərəcəsinin müəyyənləşdirilməsidir. Aparılan tədqiqat zamanı müəyyən edilmişdir ki, milli ədəbiyyatşünaslığımızda yaradıcı şəxsiyyət konsepsiyasının araşdırılması yönündə yazılan ilk tədqiqat işi Sevinc Arif qızı Nəbizadəyə məxsusdur. Onun filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "Творческая личность и ее художественное отображение в современной русской прозе (в контексте творчества Ю.Бондарева)"[9] ("Yaradıcı şəxsiyyət və onun müasir rus nəsrində bədii əksi (Y.Bondarevin yaradıcılığı kontekstində ) adlı dissertasiya işinin müəyyən elmi əhəmiyyətinə baxmayaraq bir yazıçının yaradıcılığı ilə bağlıdır, yəni komparativ təhlilə aidiyyatı yoxdur.

Tədqiqatımızın əsasını təşkil edən ingilis yazıçılarından Uilyam Somerset Moemin və Virciniya Vulfun yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında da ayrı-ayrılıqda tədqiq edilib. Azərbaycan ədəbiyyatı elmində Virciniya Vulf yaradıcılığında insan konsepsiyasının komparativ aspektdə tədqiqinə Fərqanə Zülfüqarovanın "İngilis və Azərbaycan ədəbiyyatlarında insan konsepsiyası (Virciniya Vulf və Afaq Məsudun yaradıcılıqları əsasında)"[10] adlı monoqrafiyasında rast gəlirik. Burada V.Vulf yaradıcılığında insan konsepsiyası Azərbaycan ədəbiyyatı ilə nümunələrlə müqayisədə öyrənilir, müasir ədəbiyyatımızın materialı əsasında müqayisəli şəkildə təhlilə cəlb olunur. Fərqanə Zülfüqarovanın "XIX əsrin sonu XX əsrin əvvəllərində ingilis ədəbiyyatı"[11] adlı ikinci kitabında da əsas yeri V.Vulf haqqındakı oçerk tutur. Virciniya Vulf yaradıcılığını tədqiq edən digər elmi iş tədqiqatçı Aysel Fərəcovanın magistr elmi dərəcəsi almaq üçün təqdim etdiyi "Virciniya Vulf və psixoloji roman janrı"[12] adlı

---

[9] Набизаде, С.А. Творческая личность и ее художественное отображение в современной русской прозе (в контексте творчества Ю. Бондарева) / кандидат филологических наук, автореферат дис./ – Баку, – 2008. – 17 с.

[10] Zülfüqarova F. İngilis və Azərbaycan ədəbiyyatlarında insan konsepsiyası (Virciniya Vulf və Afaq Məsudun yaradıcılıqları əsasında) / F. Zülfüqarova. – Bakı: Elm və təhsil, – 2012. – 232 s.

[11] Zülfüqarova F. XIX əsrin sonu XX əsrin əvvəllərində İngilis ədəbiyyatı / F. Zülfüqarova. – Bakı: Elm və təhsil, – 2012. – 153 s.

[12] Fərəcova A.Ş. Virciniya Vulf və psixoloji roman janrı: / magistr dis./ – Bakı, 2015. – 79 s.

dissertasiya işidir ki, burada psixoloji roman janrı kontekstində yazıçının "Missis Dellouey"[13] romanı təhlil edilir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Uilyam Somerset Moemin "Ay və qara qəpik"[14] və "Teatr"[15], Virciniya Vulfun "Yazıçının gündəliyi"[16] və "Onun öz otağı"[17] əsərləri və müvafiq olaraq Azərbaycan yazıçılarından Əşrəf Səid İbrahimin "Sultan Məhəmməd"[18] romanı, İlqar Fəhminin "Aktrisa"[19] əsəri, Gülrux Əlibəylinin "Düşünən dünyamız"[20] və "Çırpınan dünyamız"[21] esseləri təşkil edir.

Tədqiqat işinin predmetinə qeyd edilən ingilis və Azərbaycan əsərlərindəki yaradıcı şəxsiyyət obrazının tipologiyası, oxşarlıq-fərqlilik və onları şərtləndirən obyektiv və subyektiv amillər kontekstində araşdırılması daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi ingilis və Azərbaycan ədəbiyyatında yer alan yaradıcı şəxsiyyət obrazını V.Vulf, U.S.Moem və müvafiq olaraq Ə.S. İbrahim, İ.Fəhmi, G.Əlibəylinin əsərləri ilə müqayisəli şəkildə araşdırmaqdır. Bununla əlaqədar aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

–Yaradıcı şəxsiyyət obrazı problemini ədəbi–nəzəri fikir tarixində işıqlandırmaq;

–Yaradıcı şəxsiyyət obrazına yanaşma aspektlərini müəyyənləşdirmək;

---

[13] Woolf, V. Mrs. Dalloway / V. Woolf. – Austin: Anaconda, – 2013. – 206 pp.

[14] Moem, U.S. Ay və Qara Qəpik / U.S.Moem. – Bakı: Qanun Nəşriyyatı, – 2012. – 256 s.

[15] Moem, U.S. Teatr, Seçilmiş əsərləri / U.S.Moem. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2016. – 563 s.

[16] Woolf, L. A Writer`s Diary: Being Extracts from the Diary of Virginia Woolf / L. Woolf.– San Diego: Harcourt Inc., – 1953. – 367 pp.

[17] Woolf, V. A Room of One's Own / V. Woolf. – London: Grafton, Harper Collins Publishers, – 1977. – 125 pp.

[18] İbrahim, S.Ə. Sultan Məhəmməd / S.Ə.İbrahim. – Bakı: Yazıçı, – 1992. – 176 s.

[19] Fəhmi, İ. Aktrisa / İ.Fəhmi. – Bakı: Qanun Nəşriyyatı, – 2011. – 156s .

[20] Əlibəyli, G. Düşünən dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 1998. – 196 s.

[21] Əlibəyli, G. Çırpınan dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 2000. – 176 s.

– U.S.Moemin “Ay və qara qəpik”[22] və Ə.S.İbrahimin “Sultan Məhəmməd”[23] əsərlərində yaradıcı şəxsiyyət obrazlarını tipoloji planda araşdırmaq;

–S.Moemin “Teatr” romanı və İ.Fəhminin “Aktrisa” əsərində yaradıcı şəxsiyyət obrazlarını müqayisəli şəkildə təhlil etmək;

–V.Vulfun “Yazıçının gündəliyi”[24], “Onun öz otağı”[25] memuar və avtobioqrafik esseləri və müvafiq olaraq G.Əlibəylinin “Düşünən dünyamız”[26] və “Çırpınan dünyamız”[27] esse kitablarında yaradıcı şəxsiyyətə dair düşüncə və mövqelərinin oxşar və fərqli cəhətlərini aşkarlamaq.

**Tədqiqat metodları.** Dissertasiya işində tədqiq edilən problemin xarakterinə uyğun olaraq müqayisəli–tipoloji metod, diskurs təhlili daha məqsədyönlü hesab edilmiş, araşdırmanın elmi və nəzəri müddəaları müvafiq Azərbaycan, ingilis, ingilisdilli mənbə və məxəzlər zəminində əsaslandırılmışdır. Müqayisəli–tipoloji metoddan istifadə etməklə ingilis və Azərbaycan ədəbiyyatlarında yaradıcı şəxsiyyət obrazlarının oxşar və fərqli cəhətləri araşdırılmış, tədqiqat obyektinin hər iki ədəbiyyat üzrə ümumi xassələri və onlar arasındakı münasibətlər ümumiləşdirilmişdir. Diskurs təhlili müəllifin istifadə etdiyi bədii dilin onun şəxsiyyətinin dinamikasını təsvir etdiyini öyrənmək üçün tətbiq edilmişdir. Tədqiqatda müasir ingilis tədqiqatçılarının elmi–nəzəri təcrübəsinə istinad edilmiş, bununla bərabər, bir sıra Azərbaycan, Avropa və Amerika ədəbiyyatşünas və filosoflarının mövzu ilə bağlı fikirlərinə də müraciət olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakı kimi diqqətə çatdırılır:

– Yaradıcı şəxsiyyət konsepsiyasının kəsb etdiyi anlam

---

[22] Moem, U.S. Ay və Qara Qəpik / U.S.Moem. – Bakı: Qanun Nəşriyyatı, – 2012. – 256 s.

[23] İbrahim, S.Ə. Sultan Məhəmməd / S.Ə.İbrahim. – Bakı: Yazıçı, –1992. – 176 s.

[24] Woolf, L. A Writer`s Diary: Being Extracts from the Diary of Virginia Woolf / L. Woolf.– San Diego: Harcourt Inc., – 1953. – 367 pp.

[25] Woolf, V. A Room of One’s Own / V. Woolf. – London: Grafton, Harper Collins Publishers, – 1977. – 125 pp.

[26] Əlibəyli, G. Düşünən dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 1998. – 196 s.

[27] Əlibəyli, G. Çırpınan dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 2000. – 176 s.

ədəbi–nəzəri fikir müstəvisində müxtəlif aspektlərdən müəyyənləşdirilir;

– Müasir dövrə keçid mərhələsində ingilis ədəbiyyatında yaradıcı şəxsiyyət obrazına yeni baxışlar təhlil edilir;

– İngilis romanlarında müasir insanın ideya–bədii xüsusiyyətləri "qloballaşan dünya" modelində yenilikçi obraz kimi təhlil edilir;

– Avtobioqrafik səciyyəli yazıçı obrazı ilə müəllif özünütəhlilinə aydınlıq gətirilir;

– Yazıçı təxəyyülünün tarixi obrazlara müraciətində yaradıcı şəxsiyyət obrazlarının fərdi özünəməxsusluqları müəyyənləşdirilir;

–U.S.Moemin "Ay və qara qəpik"[28], "Teatr"[29] romanları müvafiq olaraq Ə.S.İbrahimin "Sultan Məhəmməd"[30] tarixi romanı və İ.Fəhminin "Aktrisa"[31] əsəri ilə yaradıcı şəxsiyyət obrazı müstəvisində müqayisəli təhlilə gətirilərək üstünlüklər və uğursuzluqlar müstəvisində dəyərləndirilir;

– V.Vulfun "Yazıçının gündəliyi"[32], "Onun öz otağı"[33] və G.Əlibəylinin "Düşünən dünyamız"[34] və "Çırpınan dünyamız"[35] əsərlərində yaradıcı şəxsiyyət obrazlarında paralel oxşarlıqlar ayırd edilir;

– Gülrux Əlibəylinin "Düşünən dünyamız"[36] və "Çırpınan dünyamız"[37] əsərlərində müəllifin daxili monoloqu, qələmə aldığı ədəbi portretlərdə müasir yaradıcı mühitin simaları təqdim edilir;

---

[28] Moem, U.S. Ay və Qara Qəpik / U.S.Moem. – Bakı: Qanun Nəşriyyatı, – 2012. – 256 s.
[29] Moem, U.S. Teatr, Seçilmiş əsərləri / U.S.Moem. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2016. – 563 s.
[30] İbrahim, S.Ə. Sultan Məhəmməd / S.Ə.İbrahim. – Bakı: Yazıçı, –1992. – 176 s.
[31] Fəhmi, İ. Aktrisa / İ.Fəhmi. – Bakı: Qanun Nəşriyyatı, – 2011. – 156s .
[32] Woolf, L. A Writer`s Diary: Being Extracts from the Diary of Virginia Woolf / L. Woolf.– San Diego: Harcourt Inc., – 1953. – 367 pp.
[33] Woolf, V. A Room of One's Own / V. Woolf. – London: Grafton, Harper Collins Publishers, – 1977. – 125 pp.
[34] Əlibəyli, G. Düşünən dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 1998. – 196 s.
[35] Əlibəyli, G. Çırpınan dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 2000. – 176 s.
[36] Əlibəyli, G. Düşünən dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 1998. – 196 s.
[37] Əlibəyli, G. Çırpınan dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 2000. – 176 s.

– Azərbaycan ədəbiyyatında müasir dövr və yaradıcı şəxsiyyət obrazına müraciət edən müəlliflərin əsərləri səciyyələndirilir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq ingilis (S.Moem, V.Vulf) və Azərbaycan (Ə.S.İbrahim, İ.Fəhmi) nasirlərinin əsərləri ümumiyyətlə komparativ təhlilə cəlb edilir və bu təhlilin predmeti yaradıcı şəxsiyyət obrazının səciyyəsi ilə bağlıdır. İlk dəfə olaraq S.Moemin "Ay və qara qəpik"[38] romanı Ə.S.ibrahimin "Sultan Məhəmməd"[39] adlı tarixi romanı ilə ümumiyyətlə bir araya gətirilir: yaradıcı şəxsiyyət obrazının təcəssümü baxımından. Eynilə ilk dəfə olaraq qadın yazarları V.Vulfun "Yazıçının gündəliyi"[40], "Onun öz otağı"[41] və G.Əlibəylinin "Düşünən dünyamız"[42] və "Çırpınan dünyamız"[43] esselər kitabları ilə müqayisəli təhlilə cəlb edilir: yaradıcı şəxsiyyət obrazına münasibət müstəvisində. Qeyd edilən müqayisəli təhlillərin əsasında duran yaradıcı şəxsiyyət obrazına xas şəxsi insani keyfiyyətlərin və sənətkarlıq səviyyəsinin tənasübündə (antinomiyasında) həlledici meyar məhz sənətkarlıq dühasının prioritetliyinin seçimi ilə bağlanılır. Eyni problem tipoloji-müqayisəli təhlilin obyektləri olan S.Moemin "Teatr"[44] romanı və İ.Fəhminin "Aktrisa"[45] əsərinə aidiyyatda tətbiq edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Müasir ingilis və Azərbaycan nəsrində yaradıcı şəxsiyyət obrazının tədqiqi həm nəzəri, həm də praktik cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatın sistemli təhlil üsulları və tətbiq edilən metodoloji yanaşmaları digər ədəbiyyatlar arasında yaradıcı şəxsiyyət obrazının tipologiyasının araşdırılmasında gərəkli ola bilməsi ilə bağlıdır. Araşdırma nəticəsində

---

38 Moem, U.S. Ay və Qara Qəpik / U.S.Moem. – Bakı: Qanun Nəşriyyatı, – 2012. – 256 s.

39 İbrahim, S.Ə. Sultan Məhəmməd / S.Ə.İbrahim. – Bakı: Yazıçı, –1992. – 176 s.

40 Woolf, L. A Writer`s Diary: Being Extracts from the Diary of Virginia Woolf / L. Woolf.– San Diego: Harcourt Inc., – 1953. – 367 pp.

41 Woolf, V. A Room of One's Own / V. Woolf. – London: Grafton, Harper Collins Publishers, – 1977. – 125 pp.

42 Əlibəyli, G. Düşünən dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 1998. – 196 s.

43 Əlibəyli, G. Çırpınan dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 2000. – 176 s.

44 Moem, U.S. Teatr, Seçilmiş əsərləri / U.S.Moem. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2016. – 563 s.

45 Fəhmi, İ. Aktrisa / İ.Fəhmi. – Bakı: Qanun Nəşriyyatı, – 2011. – 156s .

ortaya çıxan müddəalardan və əldə olunan qənaətlərdən XX əsr Azərbaycan və ingilis ədəbiyyatında yaradıcı şəxsiyyət problemi üzrə bir sıra elmi–nəzəri məsələlərin həllində istifadə edilə bilər.

Tədqiqat işi gələcəkdə oxşar mövzuda yeni elmi işlərin yazılmasına təkan rolunu oynaya bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu Bakı Mühəndislik Universitetinin Elmi Şurasında və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Humanitar Elmlər üzrə Problem Şurasında təsdiq edilmişdir. Dissertasiya işinin əsas nəzəri müddəaları, tədqiqatın elmi yenilikləri və əsas elmi nəticələri müəllifin ölkənin daxilində və xaricində dövrü elmi jurnallarda çap etdirdiyi məqalələrdə, elmi mətbuatda, elmi–praktiki konfransların tezislərində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Mühəndislik Universitetinin "İngilis dili" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya işi Giriş (14,594 şərti işarə), üç fəsil (I fəsil 4 paraqraf, 78,078 şərti işarə, II fəsil 2 paraqraf, 61,130 şərti işarə, III fəsil 2 paraqraf 89,357 şərti işarə), Nəticə (5,713 şərti işarə) və İstifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi: 248,872 şərti işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiyanın ümumi səciyyəsi verilir: mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi qeyd olunur, qarşıya qoyulan məqsəd və vəzifələr, tədqiqatın elmi yeniliyi, metodları, praktik və nəzəri əhəmiyyəti müəyyənləşdirilir, eləcə də müdafiəyə çıxarılan müddəalar təqdim edilir, dissertasiyanın strukturu və aprobasiyasından bəhs olunur.

Dissertasiyanın I fəsli "**İngilis və Azərbaycan ədəbiyyatında yaradıcı şəxsiyyət anlayışı və onun tipoloji cəhətləri"** adlanır. Bu

fəsil dörd paraqrafdan ibarətdir. **“Yaradıcı şəxsiyyət problemi ədəbi–nəzəri fikir müstəvisində”** adlanan I paraqrafda qeyd edilir ki, yazıçı yaradıcı şəxsiyyət obrazını bir anda, qısa bir müddətdə yaratmır. Onun yaratdığı obraz davamlı bir prosesin məhsuludur və dinamik səciyyə daşıyır. Ona görə də bədii təhlilin dəqiqlik dərəcəsini yüksəltmək üçün müasir ingilis və Azərbaycan ədəbiyyatında yaradıcı şəxsiyyət obrazlarının tədqiqi yollarını təkmilləşdirmək ədəbiyyat elminin qarşısında duran mühüm vəzifələrdən biridir. “Yaradıcı şəxsiyyət necə olmalıdır?” sualına ABŞ–ın Truman Dövlət Universitetində ingilis dilşünası Maykl Rivz belə cavab verir ki, “*yaradıcı şəxsiyyət rəssamlıq və musiqi mühitində baş qaldıran mücərrəd duyğuları şeirə, ədəbiyyata transliterasiya edə bilən bir şəxsdir”*[46].

I fəslin ikinci paraqrafı **“Yaradıcı şəxsiyyətin formalaşmasına təsir edən amillər”** adlanır. Yaradıcı şəxsiyyət problemi ədəbiyyat elmi tarixində hələ keçmiş zamanlardan bu günə kimi müzakirə mövzusu olaraq qalır. Qədim cəmiyyətlərdə istedadlı insanların qazandıqları misilsiz nüfuz və hörmət onların qabiliyyətinin mistikləşdirilməsi ilə əlaqələndirilirdi.

Yaradıcı şəxsiyyəti formalaşdıran əsas amillərdən biri emosional sabitlikdir. Emosional sabitlik yaradıcı şəxsiyyət və istedadların mühüm xüsusiyyətlərini özündə əks etdirən amillərdəndir. Onlar məhz bunun sayəsində bir əsər üzərində yorulub bezmədən illərlə işləyə bilirlər. Belə sabitliyin nəticəsində yaradıcı şəxsiyyətlərdə ömür boyu davam edən qopmaz emosiyalar və əsaslı ideyalar olur. Yazıçılarda bu emosiyalar daha davamlı olur. Onlar tapdıqları ideya və ya mövzunun verdiyi emosional ovqatın təsiri altında həftələr, aylar, hətta illərlə yaşaya bilirlər. Yaradıcı şəxsiyyət kiçik və az əhəmiyyətli ideyanı belə illərlə qəlbində gəzdirib onu genişləndirir, onda mənalar və emosional çalarlar tapa bilir. Emosional sabitlik həm də yaradıcı şəxsiyyətin yaradıcı işinin keyfiyyəti üçün vacibdir.

Bu fəslin üçüncü paraqrafı **“Azərbaycan ədəbi fikrində**

---

[46] Reeves, M. Researchgate. URL: https://www.researchgate.net/ profile/ Michael_Reeves URL:https://www.researchgate.net/ post/How_ would_ you _interpret_these_expressions_creative_personality_or_a_character_of_a_creative_personality

**yaradıcı şəxsiyyət”** adlanır. Azərbaycan ədəbiyyatşünaslığında bu sahədə yazılan bəzi tədqiqat əsərlərində yaradıcı şəxsiyyət və ona verilən əsas dəyər və keyfiyyətlərin nədən ibarət olması haqqında Abbas Hacıyev “Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq” (1986) adlı kitabında aşağıdakıları qeyd edir: *“Yaradıcı şəxsiyyət dünyamızın yenidən qurulmasının mənəvi əhəmiyyətini daima beynində, düşüncələrində gəzdirir. Sənətkar, yaradıcı insan müasirləri önündə və cəmiyyət qarşısında öz borcunu dərk edən insandır. O, çətinliklərdən qorxmur. Şəxsiyyəti güclü edən ondakı böyük sevgidir. Bu sevgi onu yaşadır və onu əhatəsindəki insanlara bağlayır. Yaradıcı şəxsiyyətin bir üstün cəhəti də ondadır ki, o, sadə həyat həqiqətlərində dərin fəlsəfi məna tapır, dövr və zamanla ayaqlaşa bilməyənlər haqqında mövcud təsəvvürləri daha da dərinləşdirir”*[47].

Yazıçı Məsud Əlioğlunun yaradıcı şəxsiyyət haqqında söylədiyi fikirlər, düşüncələr o şəxsin necə olması və cəmiyyətdəki nüfuzu, insanların ona inamı barədə çox mətləbləri ortaya qoyur. O, “Ədəbiyyatda yeni insan” (1964) adlı əsərində yazır: *“Əsrin qabaqcıl ideyalarından ruhlanan və bu ideyalarla qidalanan yaradıcı şəxsiyyətlər bu ideyalardan xalqın inkişafı üçün istifadə edirlər. Xalq elə bir şəxsiyyətin ideyasına inanır ki, o, öz əməyi və şəxsiyyəti ilə xalqı özünə inandıra bilsin. Həyatın sirlərini anlamaq, ictimai hadisələri qiymətləndirmək şəxsiyyətin əsas qayəsidir. Yaradıcı şəxsiyyət millətin ruhundan doğar, o ruhu yüksəldər və aləm qarşısında nümayiş etdirər və, beləcə, yaratdığı yeni mənəvi dünyanın günəşi bütün köhnəlikləri və qaranlıqları məhv edər. Bunu bacarmaq üçün isə həmin yaradıcı şəxsiyyətin düşüncəsi də, əxlaqı da, həyata baxışı da yeni olmalıdır”*[48].

Yaradıcı şəxsiyyət haqqında İsmayıl Vəliyevin fikirləri də maraqlıdır. O, yazır: *“Yaradıcı şəxsiyyət hər şeydən əvvəl bir insandır. İnsanın təbiətə olan münasibəti, bu münasibətdən əmələ gələn anlayışlar onun özünü təkmilləşdirir, idrakını gücləndirir”*[49].

---

47 Hacıyev, A. Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq / A.Hacıyev. – Bakı: Yazıçı, – 1986. – s.75; s.83; s.159.

48 Əlioğlu, M. Ədəbiyyatda yeni insan / M.Əlioğlu. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1964. – s.152; s.167.

49 Vəliyev, İ. Ədəbiyyatda insan konsepsiyası. Tarixi təşəkkül və inkişaf mərhələləri / İ.Vəliyev. – Bakı: Günəş nəşriyyatı, – 1999. – s. 116.

Bu fəslin dördüncü paraqrafı **“İngilis romanlarında yaradıcı şəxsiyyət obrazının fərdi özünəməxsusluğu”** adlanır. İngilis cəmiyyətində yaradıcı insanın dühasına, yaradıcı şəxsiyyətə həmişə böyük sevgi və rəğbət olub. Kraliça Yelizaveta bir gün Şekspirə deyir: *“Hərgah əsrlər arxasında gələcək nəsillərə müraciət etməyə qüdrətim çatsaydı, onlara açıq ürəklə məsləhət görərdim ki, sizin indiki bu parlaq arzularınızı qətiyyətlə və cəsarətlə həyata keçirsinlər. Çünki bir Şotland şairinin dediyi kimi xalq nəğmələrinin yaradıcıları məmləkətin qanunlarını yaradanlardan daha qüdrətlidirlər”*[50].

XX əsrin sonunda Böyük Britaniyada ədəbi proses yalnız realizm və postmodernizm metodu ilə müəyyən edilmir. Bu dönəmdə ingilis ədəbiyyatında yeni istiqamətlər, cərəyanlar da yaranmışdır. Zaman keçdikcə ingilis ədəbiyyatı anlayışı beynəlmiləlləşdi, burada başqa-başqa millətlərin–ərəb, yapon, hind–mədəni ənənələrinin daşıyıcıları olan, ingiliscə yazıb–yaradan sənətkarların əsərləri meydana gəldi. İngilis yazıçıları hesab edilən Salman Rüşdi, İşiquro Kazuo, Hənif Qureyşi kimi yazıçılar milliyətcə ingilis olmasalar da, ancaq ingiliscə yazıb–yaradırdılar.

Müasir ingilis ədəbiyyatında yaradıcı şəxsiyyət obrazına bədii əsərlərdə, o cümlədən, bioqrafik, memuar və avtobioqrafik romanlarda, habelə esselərdə rast gəlmək olar. Belə əsərlərdən biri XX əsrin görkəmli ingilis qadın yazıçısı Elizabet Teylorun “Anjel”[51] əsəridir. Romanlarında ingilis cəmiyyətinin orta və yuxarı təbəqəsinin yaşam tərzini böyük məharətlə təsvir etməsi yazıçıya xüsusi oxucu kütləsi qazandırmışdır. Onun Robert Liddellə uzun müddət davam edən yazışmaları 1951–ci ildə “Məktub yazanlar”[52] (“The Letter Writers”) adı altında nəşr olunmuşdur.

Dissertasiya işinin II fəsli “**Müasir ingilis və Azərbaycan nəsrində yaradıcı şəxsiyyət obrazının formalaşmasında milli-tarixi gerçəklik və yazıçı təxəyyülünün rolu”** adlanır. Bu fəsildə ingilis ədəbiyyatının müvafiq dövrünü şərtləndirən amillər, yaradıcı şəxsiyyət

---

[50] Ağayev, Z. İngilis ədəbiyyatı antologiyası: [2 cilddə] / Z.Ağayev. – Bakı: Şərq – Qərb, c.2. – 2007. – s.36.

[51] Taylor, E. Angel / E.Taylor. – London: Virago press, – 1984. – 250 pp.

[52] Taylor, E. Complete Short stories / E.Taylor. – London: Virago press, – 2012. – 626 pp.

obrazlarından bəhs edən bədii nəsr nümunələri, kraliça Viktoriyanın vəfatından sonra ölkədə baş verən ictimai–siyasi hadisələr, elmdə, incəsənətdə, ədəbiyyatda yaranan yeni ideyalarla bağlı qısa icmal verilmişdir. Eyni zamanda, Azərbaycan milli ədəbi tarixi prosesin təkamülü istiqamətində aparılan araşdırmalara nəzər yetirilməsi nəticəsində Yaşar Qarayev, Nizami Cəfərov, İsa Həbibbəyli, Vəli Osmanlı, Nazif Qəhrəmanlı, Bədirxan Əhmədov, Alxan Bayramoğlu, Təyyar Salamoğlu və başqalarının irəli sürdükləri müddəalar, konseptual versiyalar, dövrləşdirmənin müasir modelinin müstəvisində kifayət qədər perspektivli tədqiqat istiqamətləri əsaslandırılmışdır. O cümlədən, müasir dövrün ədəbiyyatşünaslığında klassiklərə həsr olunmuş əsərlərin tədqiqində yaradıcı şəxsiyyət obrazının dəyərləndirilməsində əsasən hər iki amil: tarixi həqiqət və yazıçı təxəyyülünün rolu nəzərə alınmışdır (söhbət S.Vurğun, M.S.Ordubadi, Y.V.Çəmənzəminli, H.Cavid, Ç.Hüseynov və digər görkəmli yazıçıların əsərlərindən gedir).

II fəslin birinci paraqrafı **“Somerset Moemin “Ay və qara qəpik” və Əşrəf Səid İbrahimin “Sultan Məhəmməd” romanlarında yaradıcı şəxsiyyət konsepsiyasının bədii həlli”** adlanır. Bu paraqrafda ingilis nasiri, dramaturqu, ədəbi tənqidçisi Uilyam Somerset Moemin (1874–1965) “Ay və qara qəpik”[53] əsərindəki Çarlz Striklend obrazı təhlil edilir. Roman ilk dəfə 1919–cu ildə nəşr olunmuşdur. Əsər Azərbaycan dilinə tərcümə olunmuş, 1993–cü və 2012–ci illərdə nəşr edilmişdir. Bu əsərdəki qəhrəmanın–Çarlz Striklend obrazının prototipi postimpressionizm cərəyanının görkəmli nümayəndəsi fransız rəssamı Pol Qogen (1848–1903) (Paul Gauguin) olmuşdur.

Somerset Moemin “Ay və qara qəpik”[54] romanı təhkiyəçinin dili ilə nəql olunur. Hadisələri nəql edən təhkiyəçinin prototipi Somerset Moemin özüdür. Əsərdə təsvir olunan baş qəhrəman–Çarlz Striklend Londonda birja dəllalı işləyir. O, qaradinməz, insanlarla ünsiyyətə can atmayan asosial bir adamdır, sosiopatdır.

---

[53] Maugham, S. The Moon and Sixpence / S.Maugham. – Moscow: Progress Publishers, – 1972. – 240 pp.

[54] Maugham, S. The Moon and Sixpence / S.Maugham. – Moscow: Progress Publishers, – 1972. – 240 pp.

Əsərin adında fəlsəfi metafora hifz edilib. Ay–yüksək sənətin simvoludur, qara qəpik isə–kasıblıqdır. “Ay” simvolunun bir əlaməti də Çarlz Striklendin obrazında təcəssüm olunmuşdur: onu ailədən, maddiyyatdan qoparıb aparan daxilində hiss etdiyi cazibə qüvvəsidir: lunatik kimi ay işığında gözüyumulu yaradıcılıq axtarışında sənətə aparan çətin yolu, azadlığı seçmək.

Bu roman ədəbiyyatla incəsənətin sintezidir. Romanda maddi dünya əsl sənətə qarşı qoyulmuşdur. Əsərdə belə fikir var: *“Səncə, gözəllik çay sahilindəki daş kimidir ki, hər kəs onu götürsün? Gözəllik əlçatmazdır, sənətkar onu dünya xaosunda əzablar içində yaradır. Və gözəllik yarananda hər kəs onu anlamır, anlamaq üçün sənətkarın ehtirasını anlamalısan”*[55].

Romanın, bir növ, proloqa bənzər hissəsində təhkiyəçi (əslində müəllif özü) yaradıcı şəxsiyyətin dəyərləndirilməsində “şəxsi keyfiyyətlər və yaradıcı xarakter” antinomiyası ilə bağlı öz mövqeyini əsaslandırır. Çarlz Striklend obrazında, xüsusən, sənətə aparan böyük yola hələ qədəm qoymasından əvvəl qeyri–insani davranış, ətrafdakıların fikrinə məhəl qoymayan sinik eqosentrikə məxsus keyfiyyətləri vurğulanır. Ailəsindən, cəmiyyətdən tam təcrid olaraq özünü yüksək sənətə qurban vermək missiyasını daxilində intuitiv dərk etdikdən sonra öz qəti seçimini edir. Əslində qeyd olunan antinomiya məsələsi bir çox məşhur filosofların, yazıçıların (məsələn, İ.Kant, A.S.Puşkin və b.) əsərlərində fərqli müstəvilərdə təqdim edilir. Moemin romanındakı ideya dissertasiyada birmənalı şərh edilir: Striklendin prototipi olan postimressionizmin görkəmli nümayəndəsi rəssam Pol Qogenin adı–insani keyfiyyətlərindən asılı olmayaraq–dünya incəsənət tarixinə qızıl hərflərlə həkk edilib. Bu da ki, dahilərə məxsus əlahiddə dəyər şkalasının mövcudluğunun sübutudur.

Dissertasiyada Moemin romanı istedadlı Azərbaycan rəssamı, jurnalisti, yazıçısı Əşrəf Səid İbrahimin “Sultan Məhəmməd”[56] adlı tarixi romanı ilə baş qəhrəmanlarının yüksək rəssamlıq sənətinə mənsubluğu baxımından tipoloji müstəvidə tədqiq olunur. Şəksiz, mahir qələmin məhsulu olan Ə.S.İbrahimin bitməmiş romanının birinci

---

[55] Yenə orada. – p.27.
[56] İbrahim, S.Ə. Sultan Məhəmməd / S.Ə.İbrahim. – Bakı: Yazıçı, –1992. – 176 s.

kitabında (müəllif 2000-ci ildə vəfat etmişdir) nəqqaşlıqdan başlayan gənc Məhəmmədin Təbriz miniatür məktəbinin banisi zirvəsinə aparan yolu Azərbaycanın Səfəvi tarixinin geniş siyasi–mədəni kontekstində verilir. Söhbət Şah İsmayılın milli dövlətçiliyin qurulması yolunda həyata keçirtdiyi böyük islahatlardan gedir ki, bunların içində şahın milli sənətin, ədəbiyyatın həqiqi bilicisi və hamisi olduğundan bəhs edilir. Məhəmmədin sənət xətti yazıçı tərəfindən Səfəvi tarixinin yollarında qovuşaq tərzdə nəql edilir, məsələn, S.Moemin romanının qəhrəmanından fərqli olaraq. Ümumiyyətlə, dissertasiyada tipoloji təhlilə cəlb edilən əsərlərin a priori Qərb və Şərqin görkəmli sənətkarlarının fərqli sənət məktəblərinə mənsubluğu, özünəxas milli mentallığı, dünyaduyumu və s. ilə bağlı amillər hökmən nəzərə alınır, vurğulanır. Bununla belə, böyük sənətin yollarında ilahi vergili sənətkarların, əsl yaradıcı şəxsiyyətlərin obrazlarında tarixi-mədəni amillərlə şərtlənən, həm də "Ay"ın (Moem) qarşısıalınmaz cazibəsi məsələsidir ki, adı şərh modellərinə tabe olmur.

II fəslin ikinci paraqrafı **"Somerset Moemin "Teatr" romanında və İlqar Fəhminin "Aktrisa" əsərində aktrisa obrazlarının bədii təcəssümü"** adlanır.

Somerset Moemin teatr aləmindən, aktyorların həyatından bəhs edən məşhur əsəri "Teatr"[57] romanıdır. Əsər 1937–ci ildə yazılmışdır. Hadisələr 1930–cu illərdə London səhnələrinin bəzəyi olan Maykl Qosselin və Culiya Lembert cütlüyü ətrafında cərəyan edir. Əsərin ana xətti Culiyanın bir aktrisa kimi formalaşması, onun həyat və fəaliyyəti üzərində qurulmuşdur.

Teatr mövzusuna yazıçının müraciəti inkişaf edən dünyada teatrın cəmiyyətin inkişafındakı özünəməxsus rolunun dərki ilə bağlıdır. Səhnə əsəri, onun mahiyyəti, yazıçının ötürmək istədiyi mənəvi dəyərlər teatrda eyni vaxtda minlərlə tamaşaçının ürəyinə yol tapa bilir və teatr insan münasibətlərindəki ziddiyətlərin və nailiyyətlərin parlaq mənzərəsini yarada bilir.

Culiya əsl yaradıcı şəxsiyyət obrazıdır. Culiya ifa etdiyi rolun səciyyəsinə, əhval–ruhiyyəsinə məharətlə uyğunlaşa bilir. O, səhnədə

---

[57] Moem, U.S. Teatr, Seçilmiş əsərləri / U.S.Moem. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2016. – 563 s.

təbiidir, inandırıcıdır. Culiya ifa etdiyi monoloqlarda ehtiras və yanğını böyük sənətkarlıqla ifa etmək gücünə və istedadına malikdir. Səhnədə mürəkkəb psixoloji mübarizə prosesi keçirən, sevən, sevilən, fərəhlənən, düşünən, düşündürən, kədərlənən, çətinliklərlə üzləşəndə müvazinətini pozmayan yaradıcı obrazdır.

Müəllif Culiyanın anadangəlmə aktrisa olduğunu təkrar-təkrar qeyd edir. Ailə cütlüyündə o, əri Maykldan qat–qat istedadlı və geniş təbiətli insan kimi göstərilir.

Romanın dinamik inkişaf edən süjetində Culiya və Mayklın peşəkarlıq və əxlaqi-insani keyfiyyətləri paralel olaraq açıqlanır. Eyni zamanda bu xətlər teatrların da taleyi ilə fon kimi aparılır. Culiya istedadlı, zahirən gözəl, ehtiraslarla yaşayan, Maykl isə soyuq ağılla hərəkət edən, emosiyalardan azad, amma zahirən Culiyadan da yaraşıqlıdır. Elə bu səbəbdən–ratio və intuitio antinomiyası–istedadsız Maykl həyatda səhvlərə yol vermir, Culiya isə teatrda yüksək səviyyədə oynadığı obrazlardan sanki çıxa bilmir və həyatdakı bu rol ona baha başa gəlir: özündən qat-qat cavan aşağı səviyyədə olan Toma vurulmaqla, vaxtını, diqqətini, hisslərini ona boş–boşuna sərf etməklə şəxsiyyət kimi dəyərini itirir. Lakin axırda əsl yaradıcı şəxsiyyətə mənsub olan keyfiyyətlər onu düşdüyü bataqlıqdan çıxarır.

Bütün bu əhvalat, proseslər sənət və həyat problemləri müstəvisində kifayət qədər yüksək bədii əksini tapır.

Teatr mövzusu Azərbaycan ədəbiyyatında da hər zaman diqqət mərkəzində olmuşdur. Müasir Azərbaycan ədəbiyyatının və teatrının inkişafında müstəsna xidmətləri olan dahi dramaturq Cəfər Cabbarlının "Oqtay Eloğlu"[58] (1923) əsərində baş qəhrəman Oqtayın əsas həyat və fəaliyyət məramı milli teatr yaratmaqdır. "*Bu məramla o, qarşısında duran maneələrlə mübarizə aparır və, nəhayət ki, ictimai idealına nail olur, arzuladığı milli səhnəni yaradır*"[59].

Yaradıcı şəxsiyyətin ümumiləşdirilmiş obrazına C.Cabbarlının yaratdığı qəhrəmanların simasında rast gəlirik. Onlar əqidəsinə sadiq, onun uğrunda mübarizə aparan şəxsiyyətlərdir. C.Cabbarlı dramlarında

---

[58] Cabbarlı, C. Seçilmiş əsərləri / C.Cabbarlı. – Bakı: Çaşıoğlu, – 2004. – 568 s.

[59] Müasir Azərbaycan Ədəbiyyatı: (Dərslik) [2 cilddə] / red. C.Abdullayev, T.Hüseynoğlu, V.Sultanlı – Bakı: Bakı Universiteti Nəşriyyatı, – c.1. – 2007. – s.145.

cəmiyyətin sosial və mənəvi qanunlarına etiraz edən şəxsiyyətin obrazını yaradır. Qəhrəmanları yaşadıqları zamanın fövqündə dayanan, arzuları uğrunda mübarizə aparan yaradıcı insanların və yazıçının öz obrazıdır. Yazıçı öz istək və arzularını obrazları vasitəsi ilə oxuculara çatdırmaq istəyir, onların simasında görmək istədiyini, yaratmaq arzularını obrazlaşdırır.

Dissertasiyada S.Moemin "Teatr"[60] romanı ilə İ.Fəhminin "Aktrisa"[61] əsəri tipoloji təhlilə cəlb edilib.

"Aktrisa"[62] əsəri "Üçbucaq" və "Gündəlikdən parçalar" adlanan iki hissədən ibarətdir. Birinci hissədə oxucu istintaq prosesi və Lalənin mono–tamaşası ilə, ikinci hissədə isə yazıçı Rüfətin intihar etdiyi günə qədər yazdığı gündəlik qeydləri ilə tanış oluruq. Roman hadisə yerində cinayətin və cinayətin törədildiyi alətin təsviri ilə başlayır. Əsəri ilk oxumağa başlayanda oxucu əsərin adı ilə onun məzmunu arasında əlaqənin axtarışına çıxmağa məcburdur. Ancaq əsəri oxuduqca, obrazların davranış və əməllərinin onların düşüncə və fikirlərindən necə qaynaqlandığının yazıçı tərəfindən verilən psixoloji təsvirini gördükcə oxucu özü də, bir növ, "detektivliyə" başlayır. Oxucu yazıçı Rüfət Hüseynzadənin psixoloji halının aktrisa Lalə tərəfindən necə ustalıqla manipulyasiya edildiyinin və bütün bunların necə faciə ilə nəticələndiyinin şahidi olur. Yaxın vaxtlarda teatrda müxtəlif rollarda çıxış edən Lalə ilə yaxından tanış olduqca başa düşür ki, bu gənc və enerjili aktrisanın qəribə, qeyri–adi xarakteri var. Ola bilsin ki, o, səhnə üçün yaranmışdı. Amma sonralar bekar keçən həyatı elə sanki oynadığı obrazlar toplusundan ibarət idi.

Əsərin ideyası yazıçı təxəyyülünün məhsulu olan aktrisanın obrazında insanın yaradıcı keyfiyyətlərinin onun həyatında yarada biləcəyi faciəli sonluqları çatdırmaqdan ibarətdir. Bu nəticəylə bağlı S.Moemin "Teatr"[63] romanında yaradılan Culiya obrazı ilə hardasa müəyyən nisbi oxşarlıqdan danışmaq olardı. Lakin, birinci, Culiya

---

[60] Moem, U.S. Teatr, Seçilmiş əsərləri / U.S.Moem. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2016. – 563 s.
[61] Fəhmi, İ. Aktrisa / İ.Fəhmi. – Bakı: Qanun Nəşriyyatı, – 2011. – 156s .
[62] Yenə orada. – 156s .
[63] Moem, U.S. Teatr, Seçilmiş əsərləri / U.S.Moem. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2016. – 563 s.

obrazı, mürəkkəb olsa da, real görünür və onun peşəkarlığı oynadığı konkret rollarda təqdim edilir; ikinci, Moemin əsərində faciə səviyyəsində sonluqdan danışmaq olmur. Culiya peşəkar aktrisa, yaradıcı şəxsiyyət olaraq yol verdiyi səhvi adlaya bilir, səhnəyə qayıdıb əsl həyatını yaşayır. O ki, qaldı İ.Fəhminin qəhrəmanına: birincisi onun səhnə fəaliyyətindən konkret məlumat verilmir; ikincisi səhnədən ayrılandan sonra o, bekar həyat yaşayır, qonşu olan yazıçıyla distansion (balkondan) lal məhəbbət intriqası qurur, süni oyunun nəticəsində üç qətl baş verir. Əsası isə Lalənin sonda "Kleopatranın hüzuru" (özünün ifadəsidir) başlığı ilə "səhnə və həyat" mövzusunda fəlsəfisayaq uzun–uzadı monoloqu təqdim olunur–ola biləcək böyük aktrisanın taleyinin belə finalına dair.

Dissertasiyanın III fəsli **"Virciniya Vulf və Gülrux Əlibəylinin yaradıcılığında yazıçı avtoportreti: yaradıcı obrazın özünəməxsus təzahür formaları"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir və qadın yazıçıların öz fikirlərini çatdırmaq üçün avtobioqrafik və memuar janrlarına müraciət etməsi ilə bağlıdır. Müəlliflərin gördükləri, şahidi olduğu və ya iştirak etdiyi hadisələri təsvir üsulu ilə təqdim etmələri qeyd edilir. Təsvir olunan dövr üçün səciyyəvi olan cəhət, təfərrüatın həqiqiliyinin, dəqiqliyinin önə çəkilməsi və beləcə, yazıçının da özünün əsərdə obraza çevrilməsindən bəhs edilir.

III fəslin I paraqrafı **"Virciniya Vulfun "Yazıçının gündəliyi" və Gülrux Əlibəylinin "Düşünən dünyamız" esselər kitabında müəllif təhkiyəsi: daxili nitq"** adlanır**.** "Yazıçının gündəliyi"[64] ("A Writer`s Diary") Virciniya Vulfun gündəliklərindən edilmiş çıxarışların toplusundan ibarətdir: yazıçının ölümündən sonra onun həyat yoldaşı Leonard Vulf tərəfindən 1953–cü ildə dərc edilmişdir. 1915–ci ildə yazıçı müntəzəm olaraq gündəlik yazmağa başladı və bu işi 1941–ci ilə qədər davam etdirdi, son qeydləri ölümündən dörd gün əvvəl edib. Gündəlikdə 27 il ərzində ardıcıl olaraq onun gördüyü insanlar haqqında, özü haqqında, ümumilikdə, həyat haqqında və yazdığı və ya yazmağa ümid etdiyi kitablar haqqında düşüncələri qeyd olunub. Gündəlik nə qədər mükəmməl yazılmış olsa da, yazıçının öz portretini

[64] Woolf, L. A Writer`s Diary: Being Extracts from the Diary of Virginia Woolf / L. Woolf.– San Diego: Harcourt Inc., – 1953. – 367 pp.

ifadə edir, çünki Virciniya Vulfun, özünün də gündəlikdə qeyd etdiyi kimi, insanın başına gələnləri, yaşadıqlarını qeyd etmə prosesi tədricən bu və ya digər dərəcədə mənfi əhval–ruhiyyəni, əsəbini və ya bədbəxtliyini qeyd etmə vərdişinə çevrilir, başqa sözlə, əksini hiss edəndə, xoşbəxt və sevincli olanda insan gündəlik yazmır. Elə bu səbəbdəndir ki, müəllifin portretində qismən balanssızlıq hiss olunur. Qeydlərin aparıldığı tarixlərin yazılması fraqmentli olduğunu göstərir.

Virciniya Vulf irsinin bir çox tədqiqatçıları (məsələn, Y.Qeniyeva) "Yazıçının gündəliyi"ni[65] onun yaradıcılıq "emalatxanasına" açar kimi səciyyələndirir. Məlum olduğu kimi, V.Vulf bir sıra məşhur romanların müəllifi kimi tanınır.

Dissertasiyada yazıçının geniş həcmli yaradıcılığından bədii nümunələri deyil, məhz "Yazıçının gündəliyi"[66] və "Onun öz otağı"[67] adlı esse tədqiqata cəlb edilmişdir. Hər iki əsərdə yazıçı oxucunu sanki öz həyatına, daxili aləminə dəvət edir, və, məsələn, "Yazıçının gündəliyi" adət etdiyimiz həyat faktlarının təsviri ilə məhdudlaşmır, assosiativ olaraq yaradıcılıqla bağlı şüur axını formasında müəllifin bu və ya digər ədəbi hadisələrə mövqeyini bildirməsidir. Bir çox hallarda bu dəyərləndirmələr qeyri–stereotipdir. Məsələn, Bayron, Coys və b., I Cahan müharibəsi ilə bağlı "itirilmiş nəsil"ə dair fikirləri və s. Əsl yazıçıların əsərlərinin musiqi janrlarına bənzədilməsi (Coysun "Uliss"inin fuqa janrının qanunlarına uyğunluğu, "Dalğalar"ın roman–sonataya oxşadılması və s.)

İlk baxışda şüur axınına oxşayan bu fikirlər, faktların təsviri eklektik təsiri bağışlayır, əslində isə bütün bunlarda yaradıcı şəxsiyyətin qəlbini açmasıdır və meşşan atmosferində belə qəlbin tənhalığı motividir.

V.Vulfun "Yazıçının gündəliyi"[68] əsəri Gülrux Əlibəylinin esse janrında yaratdığı məşhur əsərlərini xatırladır. Dissertasiyada hər iki

---

[65] Woolf, L. A Writer`s Diary: Being Extracts from the Diary of Virginia Woolf / L. Woolf.– San Diego: Harcourt Inc., – 1953. – 367 pp.

[66] Yenə orada. – 367 pp.

[67] Woolf, V. A Room of One's Own / V. Woolf. – London: Grafton, Harper Collins Publishers, – 1977. – 125 pp.

[68] Woolf, L. A Writer`s Diary: Being Extracts from the Diary of Virginia Woolf / L. Woolf.– San Diego: Harcourt Inc., – 1953. – 367 pp.

yazıçının həyat, sənət, sənətkar, idrak sevincləri, Şekspir, Monten, Prust və s. haqqında orijinal fikirlərinin oxşarlığı və, təbii ki, hərəsinin öz milli bədii irsinə münasibətdə bu irsin konkret yaradıcılarına fərqli yanaşmaları göstərilir. Yaradıcılıqla bağlı hər iki qadın yazıçının esselərində ümumi qrandmotiv–qadının yaradıcılıq haqqları və bununla bağlı dünyanı iki yerə bölməsi: qadın dünyası və kişi dünyası. Və hər ikisi qadın dünyasının bərabər hüquqlarını müdafiə edir və hər ikisində hətta feminist mövqeyi, demək olar ki, açıq-aşkar təqdim edilir.

III fəslin II paraqrafı **"Virciniya Vulfun "Onun öz otağı" avtobioqrafik essesində və Gülrux Əlibəylinin "Çırpınan dünyamız" esse, portretlər kitabında müəllif–yaradıcı şəxsiyyətin özünütəsdiqinin identifikasiya imkanları"** adlanır. Yazıçının 1929–cu ildə qələmə aldığı "Onun öz otağı" [69] ("A Room of One's Own") əsəri feminizm hərəkatına məxsus öz içində qadın azadlığı, qadın və ədəbiyyat, qadınların ədəbiyyatda və yaradıcılıqdakı rolu mövzularını özündə ətraflı şəkildə ehtiva edən dövrün ən möhtəşəm əsərlərindən hesab edilir. Qeyd edilir ki, bu mövzu yazıldığı dövrdə çox aktual idi və sadəcə ingilis cəmiyyətinin oxucusuna deyil, bütün dünyaya xitab edirdi. Heç təsadüfi deyil ki, "Onun öz otağı"[70] əsərindən bir il öncə, 1928–ci ildə ölkəmizdə dövrün mühüm ictimai, siyasi, etik problemlərindən birinə çevrilən qadın azadlığı məsələsini işıqlandırmaq üçün dahi dramaturq Cəfər Cabbarlı "Sevil"[71] (1928) və "Almaz"[72] (1930) pyeslərini yazmışdır. Daim axtarışda olan sənətkar yaradıcılığının yeni mərhələsində ciddi, böyük sosial hadisələri təsvir etməklə bərabər, real gerçəkliyi, insanın dəyişməsini, onun ideya və xaraktercə yenidən qurulmasını göstərirdi.

"Sevil"[73] pyesində Azərbaycan qadınının azadlıq yolunda mübarizəsi, onun azad şəxsiyyət seçimini etməsi, keçmişin əzablarından, ağır yükündən xilas olmasını əks etdirilir. Ədəbiyyat

---

[69] Woolf, V. A Room of One's Own / V.Woolf. – London: Grafton, Harper Collins Publishers, – 1977. – 125 pp.
[70] Yenə orada. – 125 pp.
[71] Cabbarlı, C. Seçilmiş əsərləri / C.Cabbarlı. – Bakı: Çaşıoğlu, – 2004. – 568 s.
[72] Cabbarlı, C. Seçilmiş əsərləri: [4 clddə] / C.Cabbarlı. – Bakı: Şərq– Qərb, c.3. – 2005. – 368 s.
[73] Cabbarlı, C. Seçilmiş əsərləri / C.Cabbarlı. – Bakı: Çaşıoğlu, – 2004. – 568 s.

üçün yeni olan bu mövzu ingilis nəsrində buna daha son dövrlərə təsadüf edir. C.Cabbarlı Sevilin simasında Azərbaycan qadınının yolu və taleyini ümumiləşdirirdi.

C.Cabbarlının “Almaz”[74] pyesində hadisələr yalnız təsərrüfatın yenidən qurulması, kollektivləşmə hərəkatı kimi yox, şəxsiyyətin dəyişib, yenilənməsi fonunda təqdim olunur. Əsərdə eyni zamanda insan şüurunun dəyişməsi, insanın daxili aləminin yenidən qurulması, köhnəlik tendensiyasından uzaqlaşmaq kimi dəyərlərin formalaşması özünü göstərir. Bu kimi hadisələrə XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında da rast gəlindiyi göstərilir.

“Onun öz otağı”[75] əsərində V.Vulf feminizmdə təqsirlənməsini düşünüb bəzi mülahizələrini ixtisar etməyi üstün tutub. Amma bir sıra mövqeləri, təkliflərini saxlamışdır. İnandırıcı və həqiqətə uyğun mövzunu əhatə edən bu əsər yazıçının maraqlarının genişliyinə və dərinliyinə dəlalət edir. Əslində “Onun öz otağı” yaradıcı qadının öz məkanının olması zərurətini bildirən metaforadır. Əsasən “şüur axını” üslubunda yazılan bu essedə aparıcı motiv yaradıcı qadınların kişilərlə bərabər hüquqlarının olması ideyası ilə bağlıdır. Düşüncələr “qadınlar və onların yaratdığı ədəbiyyat” və “qadınlar və onlar haqda yaradılan ədəbiyyat” mövzuları ətrafında cərəyan edir. Antik, klassik ədəbiyyatda yaradılan Klitemnastra, Antiqona, Kleopatra, Fedra, Ledi Maqbet, Dezdemona və s. obrazları xatırlayır və onlarda natamam xarakter görmür. Eynilə kişilərin sonet, komediya, faciə və s. yaza bildikləri halda, niyə qadınların bu sahədə “bircə kəlmə də deyə bilmə”diyinə təəssüflənir. Və “qadın–kişi dünyası” yox, “həqiqət dünyasının” olmasını arzulayır.

V.Vulf əsərində özü–özünü intellektual snobizmin daşıyıcısı olduğunu etiraf edir. Yəqin ki, bu xüsusiyyət də (yaradıcılığı ilə yanaşı) feminist ideologiyasını şərtləndirən amillərdir.

Dissertasiyada V.Vulfun esse, memuar janrında yaratdığı əsərlərinin sistemli təqdimində G.Əlibəylinin esseistika sahəsindəki

---

[74] Cabbarlı, C. Seçilmiş əsərləri: [4 cilddə] / C.Cabbarlı. – Bakı: Şərq–Qərb, c.3. – 2005. – 368 s.

[75] Woolf, V. A Room of One’s Own / V.Woolf. – London: Grafton, Harper Collins Publishers, – 1977. – 125 pp.

“Çırpınan dünyamız”[76] kitabına da istinadlar edilir: oxşar motivlərin səslənməsində müəlliflər ayrı–ayrı zamanlarda yazıb–yaratmalarına baxmayaraq hər ikisi elmi, bədii təfəkkür sahibləri kimi qadınların yaradıcılıq məkanında önəmli yer tutmasının mübarizləri kimi çıxış edir. Hətta “Çırpınan dünyamız” kitabına daxil edilmiş “Portretlər” silsiləsinə müəllif yalnız dəyərləndirdiyi Azərbaycan qadınları haqqında yazılarını daxil etmişdir.

Dissertasiya işinin **“Nəticə”** hissəsində ayrı–ayrı fəsillərdə irəli sürülən fikir, qənaət və mülahizələr ümumiləşdirilmiş, müdafiəyə təqdim edilmiş müddəaların əsaslı olduğunu təsdiq edən nəticələr təqdim olunmuş, ingilis və Azərbaycan ədəbiyyatının müqayisəli–tipoloji tədqiqatı sahəsindəki gələcək perspektivləri və istiqamətləri müəyyənləşdirilmişdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU VƏ ELMİ MÜDDƏALARI MÜƏLLİFİN AŞAĞIDA QEYD OLUNMUŞ MƏQALƏ VƏ TEZİSLƏRİNDƏ ÖZ ƏKSİNİ TAPMIŞDIR.


1. Hüseynova, S.S. Qərb və Azərbaycan ədəbiyyatında yaradıcı şəxsiyyət obrazı // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Fizuli adına Əlyazmalar İnstitutu, Filologiya Məsələləri, – 2018. №12, – s. 271–276.
2. Hüseynova, S.S. S. Somerset Moemin “Ay və qara qəpik” əsərində yaradıcı insan obrazına dair // Təhsil Nazirliyinin təşkil etdiyi Doktorantların və Gənc Tədqiqatçıların XXII Respublika Elmi Konfransı, – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, 22–23 Noyabr, – 2018, – s. 235–237.
3. Hüseynova, S.S. Somerset Moemin “Ay və qara qəpik” əsərindəki rəssam obrazının ideya– bədii təhlili // – Bakı: Dil və Ədəbiyyat, Beynəlxalq elmi– nəzəri jurnal, Bakı Dövlət Universiteti, – 2018. 3 (107), – s. 320–322.


[76] Əlibəyli, G. Çırpınan dünyamız / G.Əlibəyli. – Bakı: Elm, – 2000. – 176 s.

4. Hüseynova, S.S. Elizabet Teylorun “Anjel” əsərində baş qəhrəmanın yaradıcı şəxsiyyət kimi formalaşması fenomenologiyası // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası M.Fizuli adına Əlyazmalar İnstitutu, Filologiya Məsələləri, – 2019. №10, – s. 325–331.
5. Hüseynova, S.S. XX əsrin birinci yarısında ingilis bədii nəsrində yaradıcı şəxsiyyət (U.S.Moemin əsərləri əsasında) // Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Müqayisəli Ədəbiyyatşünaslıq Beynəlxalq Elmi Jurnal, – 2019. №2, – s. 46–51.
6. Hüseynova, S.S. Somerset Moemin “Teatr” əsərində yaradıcı Culiya obrazı // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96– ci il dönümünə həsr edilmiş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı, – Xırdalan: Bakı Mühəndislik Universiteti, 29–30 Aprel, – 2019, – s. 1343–1346.
7. Hüseynova, S.S. Klara Tomalinin “Gözəgörünməz qadın” əsərində yazıçı Dikkens və aktrisa Nelli obrazı // Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş Doktorantların və Gənc Tədqiqatçıların XXIII Respublika Elmi Konfransı, – Bakı: Azərbaycan Memarlıq və İnşaat Universiteti, 3–4 Dekabr, – 2019, – s.171–173.
8. Hüseynova, S.S. Writer as a character in Modern English Literature (Based on novels by G.Greene and I.M.Evan) // Azərbaycan Respublikası Təhsil Nazirliyi, “Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya”, I Beynəlxalq elmi–praktiki konfrans, – Bakı: Azərbaycan Texniki Universiteti, 18–20 Dekabr, – 2019, – s. 68–69.
9. Hüseynova, S.S. Artistic and aesthetic manifestation of the author`s creative peculiarities in “Angel”// Azərbaycan Milli Elmlər Akademiyasının 75 illiyinə həsr edilmiş fundamental və tətbiqi elmlərin müasir problemlərinin həllində multidissiplinar yanaşmaya dair Gənc Alim və Mütəxəssislərin İkinci Beynəlxalq Elmi Konfransı, – Bakı: SOCAR, 3–6 Mart,– 2020, – s. 421–422.

10. Huseynova, S.S. Oscar Wilde as a character in Peter Ackroyd`s novel // WayScience, 10th International Scientific and Practical Internet Conference on “Modern Movement of Science”,
– Dnipro: WayScience, – 2–3 April, – 2020, – pp. 397–399.
11. Huseynova, S.S. Peter Ackroyd as an authentic author of real creative personalities in Modern English Literature // IV International Scientific Conference of Young Researchers Devoted to the 97$^{th}$ Anniversary of the National Leader of Azerbaijan, Heydar Aliyev, – Khirdalan: Baku Engineering University, – 5 June, – 2020, – pp. 212–215.
12. Hüseynova, S.S. “Yaradıcı şəxsiyyət” məfhumu ingilisdilli tədqiqatçıların perspektivində // VI TURKCESS 2020, Uluslararası Eğitim ve Sosyal Bilimler Kongresi, – İstanbul: Biruni Universiteti, TEBAD, 30 Ekim–1 Kasım, – 2020, – s. 719–722.
13. Huseynova, S.S. Virginia Woolf`s self– reflection in “A Room of One’s Own” // VI TURKCESS 2020, International Congress on Education and Social Sciences, – Istanbul: Biruni University, – 30 october– 1 November, – 2020, – pp. 723–725.
14. Hüseynova, S.S. Somerset Moemin “Teatr” əsərində yaradıcı Culiya obrazı // – Bakı: Filologiya və Pedaqogika, Bakı Mühəndislik Universiteti, – 2020. №2, c.4, – s. 114 –119.
15. Huseynova, S.S. Creative characters in Maugham`s style // – Drohobych: Humanities science current issues: Interuniversity collection of Drohobych Ivan Franko State Pedagogical University Young Scientists Research Papers, – 2021. Volume 1, issue 41, – pp.141–147.
16. Hüseynova, S.S. Virciniya Vulfun “Onun öz otağı” əsərində yaradıcı qadın axtarışları və yazıçı “mən”i // Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Müqayisəli Ədəbiyyatşünaslıq Beynəlxalq Elmi Jurnal, – 2021. №1, – s. 59–65.

17. Hüseynova, S.S. Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi: Müasir dövr // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99–cu il dönümünə həsr edilmiş Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi Konfransı, – Xırdalan: Bakı Mühəndislik Universiteti, 29–30 Aprel, – 2022, – s. 1248–1251.
18. Hüseynova, S.S. Nizami Ganjavi–the most reincarnated literary figure in Azerbaijani literature // The 3rd International Scientific and Practical Conference, Scientific goals and purposes in XXI century, – Seattle, USA, – 19 –20 July, – 2022, – pp. 124–128.
19. Hüseynova, S.S. Gülrux Əlibəylinin "Düşünən dünyamız" kitabında müəllif özünüidentifikasiyası // Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutunun təşkilatçılığı ilə Şuşanın 270 illiyinə həsr olunmuş Doktorantların və Gənc Tədqiqatçıların XXV Respublika Elmi Konfransı (NASCO XXV), – Bakı: Bakı Ali Neft Məktəbi, 23–24 Noyabr, – 2022, – s. 85–88.

Dissertasiyanın müdafiəsi _____ _____________ 2024–cü il tarixində saat _______-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının bazasında yaradılmış BFD 1.05 – Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az–1143, Bakı ş., H.Cavid pr. 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. IV mərtəbə, Elektron Akt zalı.

Dissertasiya ilə AMEA–nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ ________ 2024–cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.02.2024

Kağızın formatı: A5

Həcm: 39046

Tiraj:  100